# “Arşın mal alan” çinli tamaşaçıların qəlbini yenidən fəth edib

**Azərbaycanın dahi bəstəkarı Üzeyir bəy Hacıbəylinin “Arşın mal alan” operettası növbəti dəfə Çində səhnəyə qoyulub. Çində keçirilən “Bir kəmər, bir yol - Böyük Çin səddi” beynəlxalq folklor və incəsənət festivalı çərçivəsində sentyabrın 16-da Lanfan şəhərindəki İpək Yolu Beynəlxalq İncəsənət Mərkəzində operettanın yeni quruluşda premyerası (konsert versiyası) təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Mədəniyyət Nazirliyi, ölkəmizin Çindəki səfirliyi, Çinin Hebey vilayəti xalq hökuməti, Tiencin şəhər bələdiyyəsi və “ENN Group”un dəstəyi ilə hazırlanan konsert 18 Sentyabr - Milli Musiqi Gününə və Üzeyir bəy Hacıbəylinin doğum gününə həsr olunub.

Çinin dövlət qurumlarının, diplomatların, incəsənət adamlarının və Çin ictimaiyyətinin nümayəndələrinin tamaşa etdiyi konsertdən əvvəl çıxış edən Azərbaycanın Çindəki səfiri Əkrən Zeynallı tarixi İpək yolunun bəşəriyyətin mədəni inkişafında, müxtəlif xalqlar arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynadığını, İpək yolu üzərində yerləşən Azərbaycanın öz nadir mədəni irsi, o cümlədən musiqisi, ədəbiyyatı ilə tarixən diqqət çəkən bir diyar olduğunu bildirib.

Səfir Ə.Zeynallı görkəmli ictimai xadim, dahi bəstəkar, Azərbaycan klassik musiqisinin və müsəlman Şərqində operanın banisi Üzeyir bəy Hacıbəyli haqqında məlumat verərək deyib ki, Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin yaradıcısı olan Üzeyir bəy “Qafqazın konservatoriyası” olan Şuşada böyüyüb. Hələ gənc yaşlarında müsəlman dünyasında ilk opera olan “Leyli və Məcnun”u bəstələyən Üzeyir bəy Hacıbəyli dünya musiqi tarixinə adını yazdırıb.

Vurğulanıb ki, dahi bəstəkarın doğum günü olan 18 sentyabr Azərbaycanda Milli Musiqi Günü kimi qeyd olunur, bu münasibətlə ölkəmizdə “Üzeyir bəy Hacıbəyli” Beynəlxalq Musiqi Festivalı təşkil olunur. Builki festival sentyabrın 18-24-də Qarabağda, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada təşkil olunacaq.

Sonra səhnə musiqiçilərin ixtiyarına verilib. Tiencin şəhərinin Mahnı və Rəqs Opera Teatrının orkestrinin və vokalçılarının ifasında “Arşın mal alan” operettası Çin dilində yeni quruluşda təqdim olunub. Əsərin librettosu müasir həyata uyğunlaşdırılaraq, çinli tamaşaçılar üçün daha anlaşılan edilib. Hazırlıq prosesi təxminən 3 ay davam edib.

Tamaşanın baş məsləhətçisi və koordinatoru Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, beynəlxalq müsabiqələr laureatı, Əməkdar artist Əyyub Quliyev, baş rejissoru Lanfan şəhərindəki İpək Yolu Beynəlxalq İncəsənət Mərkəzinin bədii rəhbəri Klaudia Yanq, opera üzrə kastinq direktoru Li Saofey və Lu Şen, orkestrin dirijoru Sun Cinkay olub. Rolları Çində 1-ci dərəcəli ifaçılardan olan, beynəlxalq müsabiqələr laureatı Van Cınan (Əsgər rolu), beynəlxalq müsabiqələr laureatı Can Yanron (Gülçöhrə rolu) və digərləri ifa ediblər. İfaçıların improvizasiyaları, ifa zamanı arabir Çin elementlərindən də istifadə olunması maraqla qarşılanıb və konsert böyük anşlaqla keçib.

Qeyd edək ki, bu, “Arşın mal alan” operettası Çin ictimaiyyətinə yaxşı tanışdır. Əsər ilk dəfə Çində 1959-cu il mayın 30-da Pekin Eksperimental Teatrında səhnəyə qoyulub. Diqqətçəkən məqam odur ki, “Arşın mal alan” Çində səhnəyə qoyulan ilk xarici operetta olub. Operetta həmin il ərzində Uhan Eksperimental Opera Evi və Tiencin Dövlət İncəsənət Teatrı da daxil olmaqla, 3 teatr truppası tərəfindən Çinin müxtəlif şəhərlərində təqdim olunub. Sonrakı illərdə də əsər bir neçə dəfə səhnələşdirilib. Sonuncu dəfə isə 2010-cu ildə Pekində Çin Milli Operasının truppası tərəfindən səhnəyə qoyulub.

Azərbaycan.- 2021.- 18 sentyabr.- S.5.